

BALAXANI
SƏNAYE
PARKI

www.bsp.az

# BALAXANI SƏNAYE PARKI

## TULLANTILARI AZALT – RESURSLARI ARTIR



Balaxanı sənaye parkı "Bakı şəhərində Balaxanı Sənaye Parkının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 dekabr 2011-ci il tarixli, 1947 nömrəli Sərəncamına əsasən təsis edilmişdir.

## Baş planın konseptual layihəsi



### Məkan:

Balaxanı Sənaye Parkı Bakı şəhərinin Balaxanı qəsəbəsində yerləşir və şəhərin mərkəzindən parka avtomobillə 15 dəqiqəlik yoldur. İllik gücü 200 000 ton olan bərk məişət tullantılarının çeşidlənməsi zavodu və illik gücü 500 000 ton olan bərk məişət tullantılarının yandırılması zavodu parkın yaxınlığında yerləşir.

# Parkın ərazisi 7 hektardır, ancaq daha sonrakı mərhələlərdə ərazini genişləndirmək imkanı vardır.

## İnvestisiya güzəştləri:

- qeydiyyata alındıqdan sonra 7 il müddətinə mənfəət vergisindən (fərdi sahibkarlar isə gəlir vergisindən) azad olma;
- qeydiyyata alındıqdan sonra 7 il müddətinə torpaq vergisindən azad etmə;
- qeydiyyata alındıqdan sonra 7 il müddətinə əmlak vergisindən azad etmə;
- qeydiyyata alındıqdan sonra 7 il müddətinə sənaye parkında istehsal sahəsinin qurulması və istehsal məqsədi ilə idxal edilən texnika, texnoloji avadanlıq və qurğuların ƏDV-dən azad edilməsi.

## Planlar:

- Ümumi və davamlı infrastrukturun yaradılması
- Emal, istehsal və xidmət sahələrinin əlaqəli şəkildə vahid məkanda yerləşməsi
- Sənayenin ətraf mühitə təsirlərinin azaldılması

## Məqsədlər:

- Təkrar emal biznesinin genişləndirilməsi
- Yaşıl məhsul istehsalının artırılması
- İnnovativ texnologiyaların tətbiqi
- Məlumat və bilik mübadiləsinin həyata keçirilməsi




Planlaşdırılan istehsalat zonasının sahəsi 23 460 m2, inzibati və struktur zonasının sahəsi isə 3000 m2-dır.

## Faydalar:

- Bir istehsal sahəsinin tullantısının digər istehsal sahəsində xammal kimi istifadə olunması
- Tullantıların zərərsizləşdirilməsi zamanı əldə edilən alternativ enerjinin sənaye parkında istifadə olunması imkanı
- Əməkdaşlıq, ümumi infrastruktur və xidmətlərdən səmərəli faydalanma
- Təkrar emal nəticəsində təbii resurslara və enerjiyə qənaət olunması
- Xammal idxalı asılılığının azaldılması



## İnfrastruktur:

- Balaxanı-Binəqədi magistral yolu ilə birləşdirən şosse
- Kommunal xidmətlər: elektrik, su, kanalizasiya, qaz və istilik təchizatı, tullantıların yığılması və atılması, telefon xətti, ADSL internet bağlantısı
- Daxili xidmət vasitələri: yük maşını üçün tərəzi, anbar, bank və poçt, təmir emalatxanası, inzibati bina (ofis), əməliyyat binası (yeməkxana, duş kabinələri, soyunma otağı və s.), birmərtəbəli istehsalat binaları
- Ümumi xidmətlər: avtobus xidməti, avtomobil dayanacağı, hasarlanmış ərazi, təhlükəsizlik və mühafizə (yanğından mühafizə sistemi də daxil olmaqla), müntəzəm ekoloji monitorinq

# NİYƏ AZƏRBAYCAN?

Dünyanın ən sürətlə inkişaf edən iqtisadiyyatlarından biri kimi son 8 ildə Azərbaycanda ümumi daxili məhsul (ÜDM) 7 dəfə artmışdır. Bu gün Azərbaycanın ümumi daxili məhsulu bütün Cənubi Qafqazdakı (Azərbaycan, Gürcüstan, Ermənistan) məcmu ÜDM-nin 74%-nə bərabərdir

2003-2011-ci illərdə yoxsulluq səviyyəsi 45%-dən 7%-ə düşmüşdür

Cəlbedici vergi sistemi:

- Müəssisə və təşkilatların mənfəət vergisi: 20%
- Vətəndaşların gəlir vergisi: 14-30% (proqressiv vergi)
- ƏDV: 18%

## Nəqliyyat:

- Balaxanı-Binəqədi magistral yoluna çıxış
- Bakı Dəniz Limanından 15 km məsafədə
- Bakı Dəmiryolu (karqo) Stansiyasından 17 km məsafədə
- Beynəlxalq Hava Limanından 18 km məsafədə
- Rusiya sərhədindən 202 km məsafədə
- Tbilisi (Gürcüstanın paytaxtı) şəhərindən 560 km məsafədə
- Qara Dəniz (Poti) limanından 894 km məsafədə

## Hədəf sənayelər:

- Plastikin təkrar emalı
- Şin/rezinin təkrar istehsalı
- Elektrik və elektron cihaz tullantılarının təkrar emalı
- Akkumulyatorların təkrar emalı
- Əlvan metal və kabellərin təkrar emalı
- Təhlükəli məişət tullantılarının təkrar emalı (batareya, lampalar, civə tərkibli əşyalar və s.)
- Yaşıl (təkrar emal olunmuş) məhsulların istehsalı



## Üstünlüklər:

- Əlverişli şərtlərlə qısa və uzunmüddətli kredit almaq imkanı;
- Əlverişli qiymətlə torpaq və sənaye binalarının kirayəsi
- Vergi və gömrük güzəştlərinin tətbiqi
- Magistral yola, dəmir yoluna, beynəlxalq hava limanına, dəniz limanına asan çıxışı olan çox əlverişli mövqedə yerləşməsi;
- Rusiyaya, Xəzər və Qara dəniz, Qafqaz və Mərkəzi Asiya ölkələri kimi önəmli ixracat bazarlarına yaxınlığı;
- Həm yüksək səriştəli ixtisaslaşmış işçi qüvvəsi, həm də ucuz işçi qüvvəsi;
- Vahid infrastruktur;
- Prosedurların sadələşdirilməsi/inzibati məsələlərin həlli üçün vahid pəncərə sistemi
- Ümumi xidmətlərdən yararlanmaq imkanı

Ölkənin reytinqləri:

- Uzunmüddətli kredit reytinqi: 'BBB –' (investisiya dərəcəsi)
- Qısamüddətli kredit reytinqi: 'F3'
- BMTİP İnsan İnkişafı Hesabatı (2010): 69-cu yer
- Dünya İqtisadi Forumunun Qlobal Rəqabətlilik Hesabatı: 2011- 2012: dünya üzrə 55-ci, MDB üzrə 1-ci

Gömrük rejimi: Azərbaycana idxal olunan mallara qoyulan vergi 0-15% aralığındadır

Dövlət qeydiyyatı: Vergilər Nazirliyi daxilində "vahid pəncərə" sisteminə əsasən dövlət qeydiyyatı 3 iş günü ərzində həyata keçirilir

Qanunvericilik: Möhkəm hüquqi baza ("İnvestisiya fəaliyyəti" və "Xarici investisiyaların qorunması haqqında" Azərbaycan Respublikasının qanunları)



təmiz
şəhər


**"Təmiz Şəhər"** Açıq Səhmdar Cəmiyyəti
Azərbaycan, Bakı - AZ1025, Xocalı pr., 55 |
Tel.: [+99412] 464 4111 | Faks: [+99412] 464 4112 |
E-poçt: info@bsp.az | www.bsp.az